


# Təbiətin özü kimi

Saf ürəkli, duz-çörəkli, xoş diləkli analar üzünə oxunan şeirlərlə açılır Bayram Qaralovun bu günlərdə oxuculara təqdim edilən "Təki sağlıq olsun" kitabı. Tarixi, əzəli təbiəti xoş olan qədim yurd yerlərimiz olan Borçalı elləri "canımda əbədi can" deyə vəsf edilir bu yeni nəşrdə. Ulu dağlarımızın səfasını, ayna bulaqların vəfasını öyüb-oxşayır. Meyli vara, mənsəbə sarı olanlara asi bir düşüncəylə qələmə alınıb Bayram Qaralovun şeirləri.

Kitaba şair Rəfail İncəyurdun yazdığı ön sözdə vurğulanır ki, B.Qaralovu, bütün yaxşı adamlar kimi, xatirələr yaşadır. Onun ilk kitabı olan "Bülbülü gülə tapşıraq"a da Məmməd Dəmirçioğlu eyni xoş duyğularla ön söz yazmışdı. Dəqiq müşahidədi ki, riyazi dəqiqliklə poetik, hissi ovqat B.Qaralovun yaradıcılığında bir araya gəlib. Bu hal onun bədii yaradıcılığını şərtləndirən başlıca cəhətlərdir. Kitaba daxil edilən poetik nümunələr təbiətin özü kimi paklıq-halallıq qoxuyur.

Yeni nəşrdə müəllifin publisistik düşüncələri və haqqında yazılanlar da yer alıb.

**Sərvaz**